AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№390/3** **16 oktyabr 2026-cı il**

Az mürəkkəb müəssisələr üçün auditin aparılması üzrə metodik vəsaitin təsdiq edilməsi barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu və "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməni rəhbər tutaraq, biznes fəaliyyətinin xarakteri, idarəetmə strukturu və əməliyyatlarının həcmi baxımından mürəkkəb olmayan, sadə və kiçikölçülü təsərrüfat subyektlərində aparılan auditin keyfiyyətinin yüksəldilməsinin, habelə audit proseslərinin bu qəbildən olan qurumların miqyasına və risk profilinə uyğun olaraq optimallaşdırılmasının sahibkarlığın inkişafına, investisiya mühitinin cəlbediciliyinin artırılmasına və biznes mühitində şəffaflığın gücləndirilməsinə xidmət etdiyini, bu sahədə beynəlxalq standartlara əsaslanan çevik və effektiv audit mexanizmlərinin formalaşdırılmasının maliyyə hesabatlarının etibarlılığı, idarəetmədə səmərəliliyin artırılması və müstəqil audit xidmətlərinə olan ictimai etimadın qorunması baxımından strateji əhəmiyyət daşıdığını nəzərə almaqla Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 1.1.7-ci "Az mürəkkəb müəssisələr üçün auditin aparılması üzrə metodik vəsaitin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının Auditin təşkili və hesabatlılıq idarəsi tərəfindən hazırlanmış "Az mürəkkəb müəssisələr üçün auditin aparılması üzrə metodik vəsait"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. "Az mürəkkəb müəssisələr üçün auditin aparılması üzrə metodik vəsait" təsdiq edilsin (əlavə olunur).

2. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki:

2.1. bu qərar qüvvəyə mindiyi gündən on iş günü müddətində qərarın və onun əlavələrinin auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara çatdırılmasını təmin etsin və öz fəaliyyətlərində bu metodik vəsaitdən istifadə edilməsi barədə onlara bildiriş təqdim olunsun;

2.2. metodik vəsaitin tətbiqi üzrə auditorlara müvafiq dəstək göstərilməsini və icra prosesinə nəzarəti təşkil etsin;

2.3. Kadr hazırlığı idarəsi (E. Hacıyeva) ilə birlikdə 2026-cı il dekabrın 15-dək metodik vəsaitin tətbiqi üzrə auditor təşkilatları və sərbəst auditorlar üçün təlimin keçirilməsi təmin edilsin.

3. Auditin transformasiyası və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın və "Az mürəkkəb müəssisələr üçün auditin aparılması üzrə" metodik vəsaitin mətnlərinin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**